## Həvva Nazim

### Vətən Qoxulu Şeir

Tutaraq əlindən uzanan yolun,
Tez-tez sığalladım sağın, gah solun.
Yığdım ayaqaltdan tikanın, kolun,
Qovdum qabağımdan dumanı, çəni,
Duyğular vətənə gətirdi məni.

Yurdun qibləsinə təzimi qıldı,
Ruhum təzələndi, quş kimi oldu.
Dilim ürəyimdən sözləri aldı,
Düzüldü misralar, şeirlər yeni,
Duyğular vətənə gətirdi məni.

Həsrətin sonunun var tezi, geci,
Könlümdən töküldu qubar kirəci.
Səslədi çörəyin isti döyməci,
Dadına dad qatdı sünbülün dəni,
Duyğular vətənə gətirdi məni.

Gül açdı ilmələr, həyat naxışım,
Yağdı xəyallara sevinc yağışım,
Baxdım vüqarına, güldü baxışım,
Dağlarda qalmışdı qəlbimin təni
Duyğular vətənə gətirdi məni.